گونتاي گنجآلپ



(شکیل 1987- جی ایلده یحیی شئیدانین یوبیلئیینده چکیلمیشدیر. )
(Şəkil 1987-ci ildə Yəhya Şeydanın Yubileyində çəkilmişdir.)

# آشیق حسن

اینقيلاب اولموشدو. تبریز اونیوئرسیتئتینده اوزانلار اؤز دیلیمیزده ماهنیلار اوخوموشدولار. بو ماهنیلارین کاسئتي، دئمک اولار کي، بوتون آذربایجانا یاییلمیشدي. کاسئتلرده آشیقلاري آلقیشلایان سایسیز اینسانلارین فریادلاري ائشیدیلیردي. او زامانلار 13-12 یاشیم وار ایدي. کاسئتلرده کي سایسیز ایزدیحامین "یاشاسین آذربایجان!" شوعارلاري روحومو تیتره دیردي. بو کاسئتلرین بیزیم ائوه نئجه گلدیگیني دقیق اولاراق خاطیرلایا بیلمیرم. آنجاق بیلیرم کي، بیزیم کندیمیزده تبریز اونیوئرسیتئتینده اوزانلارین اوخودوغو ماهنیلاري هر کس ازبر بیلیردي. تارلالاردا چالیشان گنج قیزلار بعضن آغیز- آغیزا وئریب "زحمتکئش اینسانا من فداییم" سؤیله مه لرینه یئریمده دونوب قولاق آسیردیم. اؤز- اؤزومه دوشونوردوم کي، بو سسلر منیم اوچون نه آنلادیر، نه خاطیرلادیر؟ حیسس ائدیردیم کي، بو حالال،

زحِمتکئش اینسانلارین تارلالارداکي خور شکلینده سؤیله دیکلري شرقیلر اوزَریمه بیر تاریخي میسسیون یوکله ییر .
مال و قویون اوتارماقدان گلیردیم، یورغون اولماغیما باخمایاراق، کندیمیزین مئیدانلارِیندا گئجه یاریسي چیخیب اولدوزلارا باخماغي سئویردیم. قونشولاریمیزین حَیَطیندن یوکسلن پئیین قوخوسونو دا سئویردیم. ایندي آوروپانین ان لوکس ماغازالاریندان آلیش-وئریش ائدیرم. عطیرلي ماغازالاردان. آنجاق او پئیینلردن یوکسلن زحمت و حالالليق قوخوسونون لذتیني آلا بیلمیرم. درگاز وورماقدان، بیچین بیچمکدن ترله ین آتامین، خوصوصن **عنبر** قارداشیمین قولتوغونون آلتیندان بورنوما دولان قوخودان لذت آلیردیم. او قوخولاري ایندي یالنیز یوخومدا گؤرورم. یوخوما گیریر او شرف، زحمت و حالالليق قوخولاري. گئجه لر چیخیب اولدوزلو گؤیون آلتیندا، برکتلي یئرین اوستونده کندیمیزین مئیدانلاریندا گزشیردیم. بعضن ده کنددن بیر آزجیق اوزاقلاشیب و گئجه نین سسسیزلیگیني پوزان اوتلارین آراسینداکي بؤجکلرین شرقیلریني دینله ییردیم. ساعاتلارجا دینله میشم بؤجکلرین شرقیلریني. داها سونرا نه قدر سیمفونییایا قولاق آسدیم، موغام دینله دیم، آنجاق هئچ بیریسي بؤجکلرین گئجه لر سؤیله دیکلري شرقیلر کیمي روحومو ائتکیله مه دي. او شرقیلرین حصره تینده یم. خانیمیما وصییت ائتمیشم کي، اؤلدویومده کندیمیزده باسدیریلیم. اورادا، یالنیز اورادا گئجه لر او آدلاریني بیلمه دیگیم، گوندوزلر گؤره بیلمه دیگیم، یالنیز گئجه لر شرقیلریني دینله دیگیم بؤجکلرین سیمفونییالاریني دینلرکن تورپاغین آلتیندا اویوماقدان ذؤوق آلا بیلرم .
گئجه لرین سسسیزلیگینده کندیمیزین مئیدانلاریندا دولاشدیغیمدا بعضي او کاسیب و بدبخت گؤرونتوسو اولان داخمالاردان یاشلي قادینلارین "زحمتکئش اینسانا من فداییم" زومزومه لریني دویاردیم. کندیمیزده یایقین اولان بوتون بو شرقیلر آشیق حسنین سسي ایله ایلک اؤنجه یاییلمیشدي .
بو شرقیلري دینلرکن ایستر-ایستمز بو بؤیوک اینسانلا، بو بؤیوک اوزانلا، آشیق حسنله تانیش اولماق دویغولاري کئچیردي ایچیمدن. آشیق حسنین سسي، صنعتي اوشاقلیق خاطیره لریمله قاینایيب قاریشمیشدي. ایچیمده گیزلین بیر ایستک مني اوزان صنعتینه باغلامیشدي. حتّی اوزان اولماق ایسته ییردیم. لاکین یوخسوللوق، ساز صنعتیني اؤیره دن مرکزلرین اولماماسي سبب اولدو کي، اوزان اولما آرزوما چاتا بیلمه دیم. اوزان اولما آرزوما چاتماز اولدوم. آنجاق اوزان صنعتي نین تاریخي، فلسفه سي، ائستئتیک درینلیگي، میللي حیاتلا و میللي تاریخله اولان باغلاري و باغلانتیلاري حاققیندا درین آراشدیرما آپاراجاقدیم یئتکینلشدیگیمده. حتّی GUNAZ TV-də اوزان صنعتي نین تاریخي، فلسفه سي حاققیندا 10 ساعات پروقرام سوناجاقدیم. بوتون بونلارین سببي ایسه چوجوقلوق یاشلاریمدا آشیق حسنین روحوما دولدوردوغو عدالت و ایجتیماعي برابرلیک چاغریشدیران شرقیلري اولاجاقدي. ساوالان داغیني شعرییته یوکله ییب

منیم روحوما داشییاجاقدي آشیق حسن ایسکندري. آنامین تندیر باشیندا چؤرک بیشیررکن آشیق حسنین شرقیلرینی سؤیله دیگینی اونوتمام، اونوتماغا حاققیم یوخدور. آشیق حسن بوتون زحمتکئش طبقه لرین تانیدیغي و سئودیگي بیر اوزان اولموشدو. صمد بئهرنگینی ده او تانیتدي آذربایجانین حالال عایله لرینه. اونون سسي صمدین آرازدا بوغولدوغونو بیلدیردي بیزه. آشیق حسن هم بیزي دویغولاندیریر، ذؤوقلندیریر هم ده کیملیگیمیزله، تاریخمیزله تانیش ائدیردي. آذربایجانین اولولارینی بیزه تانیدیردي .

***

اورتا مکتبي بیتیررکن تبریز اونیوئرسیتئتینده اوخوماق ان بؤیوک آرزوم ایدي. ندن؟ چونکو ایچیمدن گیزلین بیر سس دئییردي کي، آذربایجانین گله جگي ایله باغلي باش وئره جک اولایلارین مرکزي تبریز اولاجاقدیر. بو اولایلارین تام اورتاسیندا اولماق ایسته ییردیم. حتّی بعضن ده اؤزومو قورتاریجي لیدئر اولاراق سانیردیم. ائله بیلیردیم کي، یوردومون قورتولوشو گؤره وینی تانري منیم شعوروما و ویجدانیما یوکله میشدیر. دوشونوردوم کي، من دونیادا اولمادیغیم اوچون آذربایجان بو وضعییته دوشموش، موطلق وطنیمي قورتارمالییام. بو سئودا اوغرونا بعضن آغلاییردیم، بعضن داغلاردا، دره لرده، خیابانلاردا یوکسک سسله شعر سؤیله ییردیم. ایچیمده یاردیمچیلاریم دا وار ایدي: فضولي، حسئین جاوید، نسیمي، صابیر، سهند و س .

اؤزومو بو ساواشا حیسسن و عقلن حاضیرلاییردیم. بو حاضیرلیق حسابینا ایدي کي، بیر چوخ آدام اینانمازدي من ایراندا دوغولموشام، هر کس منیم باکیدان گلدیگیمي ساناردي. چونکو هر کسین ادبي دیلده یازیب-اوخوماسینا، دانیشماسینا اولان اینانجیم مني بو شکیلده تربییه ائتمیشدي. اؤز-اؤزومو ائگیتیردیم. حیاتیمین ان ائنئرژیلي واختي ایدي. دونکیشوت کیمي خیال دونیاسیندا مني سئوه جک، مني داها دا گوجلندیره جک و بو ساواشدا تشویقچیم اولاجاق قیز دا وار ایدي. بو آرزولارلا، بو آماجلارلا و بو ائنئرژي ایله تبریزده اؤیرنجي اولماق ایسته میشدیم. اصلینده ایسه اساس آماجیم اؤیرنجي اولماق دئییل، آذربایجان اوغرونا بیر ساواشچي اولماق ایدي. وطنیمین اسارتدن قورتولوشونو تاریخ منه تاپشیرمیش، دئیه دوشونوردوم. ایچیمده آتش وار ایدي. توکنمز بیر ائنئرژي ایله، ایچیمده کي وولکانلارلا تبریزه گئتدیم. تبریزه ایلک گیریشیمده گؤزلریمدن یاش دورمادان آخیردي. سالام تبریزیم، من بیر ساواشچي اولاراق سنین قوینونا گلیرم، آنام منیم، دونیام منیم، قبول ائت مني، تبریزیم! مني اؤز درینلیگینله تانیشدیر، منه یول گؤستر، مني یوکسکلره قالدیر! کندیمیزین داغلاریندان، آنامین شرقیلریندن روحوما هوپموش ائنئرژي وار ایچیمده، اونون اوزَرینه سن ده بوتون گوجونو اکله، سئویرم سني تبریزیم، مني ستارخانین روحو ایله تانیشدیر، 21 آذرده شهید اولان آنالاریمین، قارداشلاریمین، باجیلاریمین فریادلارینی روحوملا تانیشدیر! من گلدیم آرتیق، تبریزیم، مني قبول ائت !

***

تبريزده كي  حياتيم عؤمرومون ان اونودولماز و وئريملي گونلريدير. كنددن گلميش بير گنج ايديم. بير چوخ زنگين عايله لره دعوت اولوردوم. عايله نين بعضي گنج قيزلاري نين منيم پار-پالتاريما، چوخ ساده گئييميمه باخيب گولدوكلريني گؤروردوم. سونرا دا من صؤحبت ائتديگيمده همين قيزلارين منه نئجه حؤرمت ائتديكلريني ده گؤروردوم. جيريق آياققابيملا، كاسيب گؤرونوموملە تبريزين ساواشچيسي اولماق ايسته ييرديم. موختليف مجليسلرده شعر اوخوماغيم، ميللي دَگرلريميز حاققيندا صؤحبتلريم چوخ قيسا زاماندا مني تبريزده مشهور ائتدي. حتّى ايران شرطلرينده هر كسه نصيب اولمايان بير نئچه قيز آرخاداشي دا بولدوم. بو قيزلارلا داغلارا، بابک قالاسينا دا گئتديک. تبريز منيم اولقونلاشمام اوچون هر تورلو شرايطي ساغلاميشدي. ايندي بو متني تبريزدن چوخ اوزاقلاردا يازديغيم اوچون نارا‌حاتام. آنجاق بيليرم كي، تبريزين قورتولوشونداكي ساواشلاردا تبريزين كوچه لريبنده اولاجاغام. او زامان 20-24 ياش آراسيندا بير گنج اولماغيما و تبريزده هئچ بير ايقتيصادي داياناغيمين اولماماسينا باخماياق، منه دَگر وئرن، منيم بيلگيلريمه، كولتورومه دَگر وئرن اينسانلارا قلبيمين درينليگينده سونسوز حؤرمتلر، سئوگيلر بارينماقدادير  .

***

1987 - جي ايلده يحيى شئيدانين يارا‌ديجيليغينا حصر اولونموش بير گئجه ده تانيش اولدوم چوجوقلوغومون سئويمليسي اولان آشيق حسن ايسكنديري ايله. آرتيق چوخ يئتكين ايديم. آذربايجانين معنوي دَگري حاققيندا بيلگي صاحيبي ايديم. خوصوصن اوزان صنعتي حاققيندا معلوماتيم و آراشديرمالاريم وار ايدي. يحيى شئيدا چوخ بؤيوک شخصيتدير. او، آذربايجانين مدنييت و معنوييات تاريخينده هئچ بير زامان اونودولماياجاق ايشلر گؤردو. منيم اؤز نفسيمه اولان گووه نين ساغلانماسيندا يحيى شئيدانين بؤيوک رولو اولدو. نئجه؟ شعرلريم و حيكايه لريم اونون يايينلاديغي قزئتده درج اولونوردو. بير گنج يازار اوچون هوسلنديريجي اورتام لازيم اولور. او دا او زامانين شرطلرينه گؤره يحيى شئيدا ايدي  .

يحيى شئيدانين يارا‌ديجيليغينا و آد گونونه حصر اولونموش گئجه ده من ده اؤز شعريمي اوخودوم. چوخ جوشقو ايله اوخوموشدوم شعري. داها سونرا دا سؤز اوزانلارا وئريلميشدي. بير نئچه اوزان ساز چاليب اوخودولار. آشيق حسن ده او گؤزل و ملاحتلي سسي ايله اوخودو. داها سونرا منه ياخينلاشيب "گؤزل شعر سؤيله دين، ياخشي شعر سؤيله ييرسن"- دئدي. تانيش اولدوق. ال سيخيشديق. بير نئچه خاطيره شكيل ده چكديرديک. مراسيم بيتديگينده آشيق حسن مني كوندور-Kündür كندينه دعوت ائتدي. كوندور كندي آشيق قشمين دونيا گليب و دونيادان گئتديگي كنددير. آشيق قشم وفات ائتميشدي و اونون قيرخيندا كوندور كندينده مراسيم اولاجاقميش. آشيق حسن "زامانين وارسا گل برابر گئدک"- دئدي. البتته كي، زامانيم وار ايدي. بئله يئرلره گئتمک اوچون دايما زامان بولوردوم. بير

يئرده گئتديک کوندور کندينه. يول بويو اوزان صنعتي حاقفيندا آشيق حسندن بيلگي آليرديم. شعر صنعتي حاقفيندا دانشيرديق. ازبردن بيلديگيم بير چوخ اوزان شعريني اونا اوخويوردوم. ديليميزين قورونماسيندا و ائتيک-ائستئتيک پلانداکي اوزان ادبيياتي نين رولو حاقفيندا دانيشيرديق .

کوندور کنديندە آشيق قشمين قيرخی مراسيمي کندين مسجيدينده ايدي. چوخ آدام وار ايدي. آذربايجانين موختليف بؤلگه لريندن گلميشديلر. چوخو دا اوزان و شاعير ايدي بو تؤرنه قاتيلانلارين. منه ده دانيشماق اوچون سؤز وئرديلر. دده قورقوددان گونوموزه قدر ميللي کيمليگيميزين درينلشمه سينده اوزان صنعتي نين رولو ايله باغلي دانيشديم. من صؤحبت ائدرکن، آشيق حسنين نئچه ذؤوق آلديغيني دوروشوندان و ديققتله دينله مه سيندن حيسس ائديرديم. مسجيدده کي تؤرن بيتديکدن سونرا مزارليغا، آشيق قشمين مزاري باشيندا دوعا اوخوماغا گئتديک .مزارليقدا اوزون بويلو ياشلي بير کيشي منه ياخينلاشيب مسجيدده کي چيخيشيمدان دولايي تبريک ائتدي. اورداجا اؤيرنديم کي، بو کيشي آذربايجانين چوخ دَگرلي بيليم آدامي، ادبيياتچي و تاريخچيسي محممدتاغي ذئهتابيدير. ذئهتابي ايله ايلک گؤروشوم کوندور کنديندە اولدو. او زامان ذئهتابي تورک تاريخي ايله باغلي گئنيش بير آراشديرما ايله مشغول اولدوغونو سؤيله دي .

آشيق حسنله ايليشکيلريميز سيخلاشدي. تبريزه دؤندوکدن سونرا آرديجيل گؤروشوردوک. بير نئچه دفعه ده آشيق حسنين دعوت اولوندوغو تويلارا برابر گئتديک. آذرشهرده و ديگر يئرلرده توي مراسيملرينه قاتيلديق. آشيق حسن اؤز قاوالچي و بالابانچي آرخاداشلاري ايله تويلاري يولا ساليردي. من ده شعر اوخويور، صؤحبت ائديرديم. اوزانلارلا آذربايجانين موختليف کند و شهرلريني دولاشماق بير فورصت اولدو منيم اوچون. چونکو توي مراسيملرينده ميللتين ان اسکي گلنَکلري ايله تانيش اولماق اولور. داها سونرا نه اولدو؟

داها سونرا من باشقا بير حيات ماجرالاري آرخاسينجا گئتديم، باشقا يئرلره. آشيق حسن ايسه ميللتين ايچينده ميللي ديليميزي، ميللي کيمليگيميزي ساز و سؤزله آنلاتماغا داوام ائتميشدير .

بو ايل آشيق حسن ايسکندري نين 60 ياشي تامام اولور. بو 60 ايلين ان آز 40 ايلي ميللي دَگرليميزين تبليغينه حصر اولونموشدور. بو اولو اينسانا، بو دَگرلي دوستوما ساغليقلي حيات ديله ييرم. آرزو ائديرم بير گون اولسون کي، آذربايجانين شهر و کندلرينده يئنه ده بير يئرده تويلاري يولا سالاق. من شعر اوخويوم، کيمليگيميزين آيرينتيلاريني توي ايشتيراکچيلارينا آنلاديم، آشيق حسن ده ساز چالسين .

22.07.2007

**Güntay Gəncalp**

# Aşıq Həsən



İnqilab olmuşdu. Təbriz universitetində ozanlar öz dilimizdə mahnılar oxumuşdular. Bu mahnıların kaseti, demək olar ki, bütün Azərbaycana yayılmışdı. Kasetlərdə aşıqları alqışlayan saysız insanların fəryadları eşidilirdi. O zamanlar 12-13 yaşım var idi. Kasetlərdəki saysız izdihamın "Yaşasın Azərbaycan!" şüarları ruhumu titrədirdi. Bu kasetlərin bizim evə necə gəldiyini dəqiq olaraq xatırlaya bilmirəm. Ancaq bilirəm ki, bizim kəndimizdə Təbriz universitetində ozanların oxuduğu mahnıları hər kəs əzbər bilirdi. Tarlalarda çalışan gənc qızlar bəzən ağız-ağıza verib "Zəhmətkeş insana mən fədaiyəm" söyləmələrinə yerimdə donub qulaq asırdım. Öz-özümə düşünürdüm ki, bu səslər mənim üçün nə anladır, nə xatırladır? Hiss edirdim ki, bu halal, zəhmətkeş insanların tarlalardakı xor şəklində söylədikləri şərqilər üzərimə bir tarixi mission yükləyir.

Mal və qoyun otarmaqdan gəlirdim, yorğun olmağıma baxmayaraq, kəndimizin meydanlarında gecəyarısı çıxıb ulduzlara baxmağı sevirdim. Qonşularımızın həyətindən

yüksələn peyin qoxusunu da sevirdim. İndi Avropanın ən luks mağazalarından alış-veriş edirəm. Ətirli mağazalardan. Ancaq o peyinlərdən yüksələn zəhmət və halallıq qoxusunun ləzzətini ala bilmirəm. Dəryaz vurmaqdan, biçin biçməkdən tərləyən atamın, xüsusən Ənbər qardaşımın qoltuğunun altından burnuma dolan qoxudan ləzzət alırdım. O qoxuları indi yalnız yuxumda görürəm. Yuxuma girir o şərəf, zəhmət və halallıq qoxuları. Gecələr çıxıb ulduzlu göyün altında, bərəkətli yerin üstündə kəndimizin meydanlarında gəzəşirdim. Bəzən də kənddən bir azcıq uzaqlaşıb və gecənin səssizliyini pozan otların arasındakı böcəklərin şərqilərini dinləyirdim. Saatlarca dinləmişəm böcəklərin şərqilərini. Daha sonra nə qədər simfoniyaya qulaq asdım, muğam dinlədim, ancaq heç birisi böcəklərin gecələr söylədikləri şərqilər kimi ruhumu etkiləmədi. O şərqilərin həsrətindəyəm. Xanımıma vəsiyyət etmişəm ki, öldüyümdə kəndimizdə basdırılım. Orada, yalnız orada gecələr o adlarını bilmədiyim, gündüzlər görə bilmədiyim, yalnız gecələr şərqilərini dinlədiyim böcəklərin simfoniyalarını dinlərkən torpağın altında uyumaqdan zövq ala bilərəm.

Gecələrin səssizliyində kəndimizin meydanlarında dolaşdığımda bəzi o kasib və bədbəxt görüntüsü olan daxmalardan yaşlı qadınların "Zəhmətkeş insana mən fədaiyəm" zümzümələrini duyardım. Kəndimizdə yayqın olan bütün bu şərqilər Aşıq Həsənin səsi ilə ilk öncə yayılmışdı.

Bu şərqiləri dinlərkən istər-istəməz bu böyük insanla, bu böyük ozanla, Aşıq Həsənlə tanış olmaq duyğuları keçirdi içimdən. Aşıq Həsənin səsi, sənəti uşaqlıq xatirələrimlə qaynayıb qarışmışdı. Artıq içimdə gizlin bir istək məni ozan sənətinə bağlamışdı. Hətta ozan olmaq istəyirdim. Lakin yoxsulluq, saz sənətini öyrədən mərkəzlərin olmaması səbəb oldu ki, ozanolma arzuma çata bilməyim. Ozanolma arzuma çatmaz oldum. Ancaq ozan sənətinin tarixi, fəlsəfəsi, estetik dərinliyi, milli həyatla və milli tarixlə olan bağları və bağlantıları haqqında dərin araşdırma aparacaqdım yetkinləşdiyimdə. Hətta GUNAZ TV-də ozan sənətinin tarixi, fəlsəfəsi haqqında 10 saat proqram sunacaqdım. Bütün bunların səbəbi isə çocuqluq yaşlarımda Aşıq Həsənin

ruhuma doldurduğu ədalət və ictimai bərabərlik çağrışdıran şərqiləri olacaqdı. Savalan dağını şeiriyətə yükləyib mənim ruhuma daşıyacaqdı Aşıq Həsən İskəndəri. Anamın təndir başında çörək bişirərkən Aşıq Həsənin şərqilərini söylədiyini unutmam, unutmağa haqqım yoxdur. Aşıq Həsən bütün zəhmətkeş təbəqələrin tanıdığı və sevdiyi bir ozan olmuşdu. Səməd Behrəngini də o tanıtdı Azərbaycanın halal ailələrinə. Onun səsi Səmədin Arazda boğulduğunu bildirdi bizə. Aşıq Həsən həm bizi duyğulandırır, zövqləndirir həm də kimliyimizlə, tarixmizlə tanış edirdi. Azərbaycanın ulularını bizə tanıdırdı.

***

Orta məktəbi bitirərkən Təbriz universitetində oxumaq ən böyük arzum idi. Nədən? Çünkü içimdən gizlin bir səs deyirdi ki, Azərbaycanın gələcəyi ilə bağlı baş verəcək olayların mərkəzi Təbriz olacaqdır. Bu olayların tam ortasında olmaq istəyirdim. Hətta bəzən də özümü qurtarıcı lider olaraq sanırdım. Elə bilirdim ki, yurdumun qurtuluşu missionunu Tanrı mənim şüuruma və vicdanıma yükləmişdir. Düşünürdüm ki, mən dünyada olmadığım üçün Azərbaycan bu vəziyətə düşmüş, mütləq vətənimi qurtarmalıyam. Bu sevda uğruna bəzən ağlayırdım, bəzən dağlarda, dərələrdə, xiyabanlarda yüksək səslə şeir söyləyərdim. İçimdə yardımçılarım da var idi: Füzuli, Hüseyn Cavid, Nəsimi, Sabir, Səhənd və s.

Özümü bu savaşa hissən və əqlən hazırlayırdım. Bu hazırlıq hesabına idi ki, bir çox adam inanmazdı mən İranda doğulmuşam, hər kəs mənim Bakıdan gəldiyimi sanardı. Çünkü hər kəsin ədəbi dildə yazıb-oxumasına, danışmasına olan inancım məni bu şəkildə tərbiyə etmişdi. Öz-özümü eyitirdim. Həyatımın ən enerjili vaxtı idi. Donkişot kimi xəyal dünyasında məni sevəcək, məni daha da gücləndirəcək və bu savaşda təşviqçim olacaq qız da var idi. Bu arzularla, bu amaclarla və bu enerji ilə Təbrizdə öyrənci olmaq istəmişdim. Əslində isə əsas amacım öyrənci olmaq deyil, Azərbaycan uğruna bir savaşçı olmaq idi. Vətənimin əsarətdən qurtuluşunu tarix mənə tapşırmış, deyə düşünürdüm. İçimdə atəş var idi. Tükənməz bir enerji ilə, içimdəki vulkanlarla

Təbrizə getdim. Təbrizə ilk girişimdə gözlərimdən yaş durmadan axırdı. Salam Təbrizim, mən bir savaşçı olaraq sənin qoynuna gəlirəm, anam mənim, dünyam mənim, qəbul et məni, Təbrizim! Məni öz dərinliyinlə tanışdır, mənə yol göstər, məni yüksəklərə qaldır! Kəndimizin dağlarından, anamın şərqilərindən ruhuma hopmuş enerji var içimdə, onun üzərinə sən də bütün gücünü əklə, sevirəm səni Təbrizim, məni Səttarxanın ruhu ilə tanışdır, 21 Azərdə şəhid olan analarımın, qardaşlarımın, bacılarımın fəryadlarını ruhumla tanışdır! Mən gəldim artıq, Təbrizim, məni qəbul et!

***

Təbrizdəki həyatım ömrümün ən unudulmaz və verimli günləridir. Kənddən gəlmiş bir gənc idim. Bir çox zəngin ailələrə dəvət olurdum. Ailənin bəzi gənc qızlarının mənim par-paltarıma, çox sadə geyimimə baxıb güldüklərini görürdüm. Sonra da mən söhbət etdiyimdə həmin qızların mənə necə hörmət etdiklərini də görürdüm. Cırıq ayaqqabımla, kasıb görünümümlə Təbrizin savaşçısı olmaq istəyirdim. Müxtəlif məclislərdə şeir oxumağım, milli dəyərlərimiz haqqında söhbətlərim çox qısa zamanda məni Təbrizdə məşhur etdi. Hətta İran şərtlərində hər kəsə nəsib olmayan bir neçə qız arxadaşı da buldum. Bu qızlarla dağlara, Babək qalasına da getdik. Təbriz mənim olqunlaşmam üçün hər türlü şəraiti sağlamışdı. İndi bu mətni Təbrizdən çox uzaqlarda yazdığım üçün narahatam. Ancaq bilirəm ki, Təbrizin qurtuluşundakı savaşlarda Təbrizin küçələribndə olacağam. O zaman 20-24 yaş arasında bir gənc olmağıma və Təbrizdə heç bir iqtisadi dayanağımın olmamasına baxmayaq, mənə dəyər verən, mənim bilgilərimə, kültürümə dəyər verən insanlara qəlbimin dərinliyində sonsuz hörmətlər, sevgilər barınmaqdadır.

***

1987-ci ildə Yəhya Şeydanın yaradıcılığına həsr olunmuş bir gecədə tanış oldum çocuqluğumun sevimlisi olan Aşıq Həsən İskəndiri ilə. Artıq çox yetkin idim. Azərbaycanın mənəvi dəyəri haqqında bilgi sahibi idim. Xüsusən ozan sənəti haqqında məlumatım və araşdırmalarım var idi. Yəhya Şeyda çox böyük şəxsiyətdir. O, Azərbaycanın mədəniyət və

mənəviyat tarixində heç bir zaman unudulmayacaq işlər gördü. Mənim öz nəfsimə olan güvənin sağlanmasında Yəhya Şeydanın böyük rolu oldu. Necə? Şeirlərim və hekayələrim onun yayınladığı qəzetdə dərc olunurdu. Bir gənc yazar üçün həvəsləndirici ortam lazım olur. O da o zamanın şərtlərinə görə Yəhya Şeyda idi.

Yəhya Şeydanın yaradıcılığına və ad gününə həsr olunmuş gecədə mən də öz şeirimi oxudum. Çox coşqu ilə oxumuşdum şeiri. Daha sonra da söz ozanlara verilmişdi. Bir neçə ozan saz çalıb oxudular. Aşıq Həsən də o gözəl və məlahətli səsi ilə oxudu. Daha sonra mənə yaxınlaşıb "Gözəl şeir söylədin, yaxşı şeir söyləyirsən"-dedi. Tanış olduq. Əl sıxışdıq. Bir neçə xatirə şəkil də çəkdirdik. Mərasim bitdiyində Aşıq Həsən məni Kündür kəndinə dəvət etdi. Kündür kəndi Aşıq Qəşəmin dünya gəlib və dünyadan getdiyi kənddir. Aşıq Qəşəm vəfat etmişdi və onun qırxında Kündür kəndində mərasim olacaqmış. Aşıq Həsən "Zamanın varsa gəl bərabər gedək"- dedi. Əlbəttə ki, zamanım var idi. Belə yerlərə getmək üçün daima zaman bulurdum. Bir yerdə getdik Kündür kəndinə. Yol boyu ozan sənəti haqqında Aşıq Həsəndən bilgi alırdım. Şeir sənəti haqqında danşırdıq. Əzbərdən bildiyim bir çox ozan şeirini ona oxuyurdum. Dilimizin qorunmasında və etik-estetik plandakı ozan ədəbiyatının rolu haqqında danışırdıq.

Kündür kəndində Aşıq Qəşəmin qırxı mərasimi kəndin məscidində idi. Çox adam var idi. Azərbaycanın müxtəlif bölgələrindən gəlmişdilər. Çoxu da ozan və şair idi bu törənə qatılanların. Mənə də danışmaq üçün söz verdilər. Dədə Qorquddan günümüzə qədər milli kimliyimizin dərinləşməsində ozan sənətinin rolu ilə bağlı danışdım. Mən söhbət edərkən, Aşıq Həsənin necə zövq aldığını duruşundan və diqqətlə dinləməsindən hiss edirdim. Məsciddəki törən bitdikdən sonra məzarlığa, Aşıq Qəşəmin məzarı başında dua oxumağa getdik. Məzarlıqda uzun boylu yaşlı bir kişi mənə yaxınlaşıb məsciddəki çıxışımdan dolayı təbrik etdi. Ordaca öyrəndim ki, bu kişi Azərbaycanın çox dəyərli bilim adamı, ədəbiyatçı və tarixçisi Məhəmmədtağı Zehtabidir. Zehtabi ilə ilk görüşüm Kündür kəndində oldu. O zaman Zehtabi türk

tarixi ilə bağlı geniş bir araşdırma ilə məşğul olduğunu söylədi.

Aşıq Həsənlə ilişkilərimiz sıxlaşdı. Təbrizə döndükdən sonra ardıcıl görüşürdük. Bir neçə dəfə də Aşıq Həsənin dəvət olunduğu toylara bərabər getdik. Azəşəhrdə və digər yerlərdə toy mərasimlərinə qatıldıq. Aşıq Həsən öz qavalçı və balabançı arxadaşları ilə toyları yola salırdı. Mən də şeir oxuyur, söhbət edirdim. Ozanlarla Azərbaycanın müxtəlif kənd və şəhərlərini dolaşmaq bir fürsət oldu mənim üçün. Çünkü toy mərasimlərində millətin ən əski gələnəkləri ilə tanış olmaq olur. Daha sonra nə oldu?

Daha sonra mən başqa bir həyat macəraları arxasınca getdim, başqa yerlərə. Aşıq Həsən isə millətin içində milli dilimizi, milli kimliyimizi saz və sözlə anlatmağa davam etmişdir.

Bu il Aşıq Həsən İskəndərinin 60 yaşı tamam olur. Bu 60 ilin ən az 40 ili milli dəyərlərimizin təbliğinə həsr olunmuşdur. Bu ulu insana, bu dəyərli dostuma sağlıqlı həyat diləyirəm. Arzu edirəm bir gün olsun ki, Azərbaycanın şəhər və kəndlərində yenə də bir yerdə toyları yola salaq. Mən şeir oxuyum, kimliyimizin ayrıntılarını toy iştirakçılarına anladım, Aşıq Həsən də saz çalsın.

22.07.2007